**Azərbaycan Respublikasi nəqliyyat-yol kompleksinə daxil olan sahələr üzrə 2004-cü ilin yekunları haqqında**

**M Ə L U M A T**

Ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəriciləri

Ölkə iqtisadiyyatının son illər müşahidə olunan dinamik inkişafını nümayiş etdirən makroiqtisadi göstəricilər əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Ölkə iqtisadiyyatı və sosial sahələrdəki vəziyyəti xarakterizə edən əsas indikator Ümumi Daxili Məhsul istehsalı 10,2 faiz və ya müqayisəli qiymətlərlə 3,6 trilyon manat artaraq 41,9 trilyon manata çatmışdır. Ümumi Daxili Məhsulunun əhalinin hər nəfərinə düşən həcmi 9,2 faiz artaraq 5114,8 min manat və ya 1041 ABŞ dolları təşkil etmişdir.

2004-cü ildə istehsal olunmuş ümumi daxili məhsulun 62,5 faizi istehsal sahələrinin, 30,2 faizi xidmət sahələrinin payına düşmüş, məhsula və idxala xalis vergilər isə onun 7,3 faizini təşkil etmişdir.

Bu dövrdə sənayedə 15949,6 milyard manatlıq yaxud ümumi daxili məhsulun 38,1 faizi qədər, kənd təsərrüfatı, ovculuq və meşəcilikdə 4789,0 milyard manatlıq (11,4 faiz), tikintidə 5438,5 milyard manatlıq (13,0 faiz), **nəqliyyatda 2939,2 milyard manatlıq (7,0 faiz)**,rabitədə 1026,9 milyard manatlıq (2,5 faiz), topdan və pərakəndə satış, avtomobillərin, motosikletlərin, məişət malları və şəxsi əşyaların təmiri üzrə xidmətlər sahəsində 3166,1 milyard manatlıq (7,6 faiz) mehmanxana restoranlar xidməti sahəsində 261,3 milyard manatlıq (0,6 faiz), sosial və qeyri-formal xidmətlər sahəsində 5224,4 milyard manatlıq (12,5 faiz) əlavə dəyər yaranmışdır.

Ümumi Daxili Məhsulun 73,5 faizi iqtisadiyyatın qeyri-dövlət bölməsində istehsal edilmişdir.ÜDM-ün strukturunda **nəqliyyat xidmətlərinin** həcmi 2003-cü ilənisbətən 4,5 faiz artmışdır.

2004-cü ildə müəssisə və təşkilatların öz vəsaitləri hesabına əsas kapitala yönəldikləri sərmayənin həcmi 20911,8 milyard manat, bank kreditləri- 1267,2

milyard manat, büdcə vəsaitləri-536,9 milyard manat, büdcədənkənar fondların vəsaitləri-81,9 milyard manat, əhalinin şəxsi vəsaitləri-972,8 milyard manat, digər vəsaitlə isə- 426,0 milyard manat təşkil etmişdir.

Bütün maliyyə mənbələri hesabına istifadə edilmiş investisiyanın 80,3 faizi sənaye sahələrinin inkişafına (76,1 faizi neft və qaz hasilatı, 3,0 faizi emal sənayesinə, 1,2 faizi elektrik enerjisi və su təchizatı sahələrinə), 0,7 faizi kənd təsərrüfatına, 0,2 faizi tikintiyə, 1,1 faizi ticarət və xidmətə, **6,4 faizi nəqliyyata**, 2,1 faizi rabitəyə, 6,2 faizi mənzil tikintisinə, 3,0 faizi digər sahələrə yönəldilmişdir.

Respublika iqtisadiyyatının müxtəlif sahələrinin dinamik inkişafı inkişafı ilə yanaşı nəqliyyat sektorunun ilbəil, davamlı inkişafı 2004-cü ildə də müşahidə olunmuşdur.

Belə ki, iqtisadiyyatın bütün sahələrində 2004-cü ildə 148,3 milyon ton və ya 2003-cü ilə nisbətən 5,6 faiz çox yük daşınmışdır.

Qeyri-nəqliyyat müəssisələri və boru kəmərləri vasitəsilə daşınan 48,8 milyon ton həcmində olan yüklər istisna olunmaqla nəqliyyat-yol kompleksi qurumları və fiziki şəxslər tərəfindən 2004-cü ildə 99,5 milyon ton, əvvəlki ilə nisbətən isə 7,3 faiz və yaxud 6,7 milyon ton çox yük daşınmışdır.

Yük daşımalarının 21,1 faizi və yaxid 21,0 milyon tonu dəmir yolu, 13,3 faizi və yaxud 13,2 milyon tonu su, 0,07 faizi və yaxud 0,007 milyon tonu hava, 65,6 faizi və yaxud 65,2 milyon ton avtomobil nəqliyyatı vasitəsi ilə həyata keçirilmişdir.

Hesabat ilində dəmir yolu nəqliyyatında yük daşınması əvvəliki ilə nisbətən 3,1 faiz, hava nəqliyyatında 42,9 faiz, avtomobil nəqliyyatında 10,4 faiz artmış, su nəqliyyatında isə 0,5 faiz azalmışdır.

Yük dövriyyəsi əvvəlki ilin müvafiq dövrünə nisbətən 4,8 faiz artaraq 21,7 milyard ton. km təşkil etmişdir. Dəmir yolunda yük dövriyyəsi 0,6 faiz azalmış, su nəqliyyatında 3,3 faiz, hava nəqliyyatında 52,7 faiz, avtomobil nəqliyyatında isə 11,6 faiz artmışdır.

Sərnişin daşınması 2003-cü ilə nisbətən 3,1 faiz artmış və 816,1 milyon sərnişin təşkil etmişdir. Bu göstərici dəmir yolunda 11,1 faiz, su nəqliyyatında 46,3 faiz, hava nəqliyyatında 26,1 faiz və avtomobil nəqliyyatında isə 3,1 faiz artmışdır.

Sərnişin dövriyyəsi əvvəlki ilə nisbətən 7,6 faiz artaraq 12,5 milyard sərnişin km təşkil etmişdir.

Bakı Beynəlxalq Dəniz Ticarəti Limanı və yükləmə boşaltma işləri həyata keçirən digər müəssisələr tərəfindən 2004-cü ildə 8,5 milyon ton və ya ötən illə müqayisədə 13,7 faiz az yükləmə-boşaltma əməliyyatları yerinə yetirilmişdir. Bu ildə limandan keçən yüklərin həcmi 18,1 faiz azalmış, idxal yüklərin həcmi 2,1 dəfə, ixrac yüklərin həcmi isə 37,1 faiz artmışdır.

Hesabat ilinin yanvar-noyabr aylarında Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin Azərbaycan hissəsində 36,9 milyon ton və ya ölkənin nəqliyyat sektorunda həyata keçirilən bütün daşımaların 34,8 faizi qədər yük daşınmışdır. Yüklərin 47,6 faizi dəmir yolu, 30,7 faizi avtomobil, 21,7 faizi isə su nəqliyyatı vasitəsilə həyata keçirilmişdir. Su nəqliyyatı istisna olmaqla digər nəqliyyat növlərinin dəhliz vasitəsilə yük daşınmasında artım müşahidə olunmuşdur. Dəhlizdə yük və sərnişin daşınmasından 909,9 milyard manat gəlir əldə edilmiş və onun 50,3 faizi dəmir yolu, 25,8 faizi su, 19,3 faizi avtomobil nəqliyyatının fəaliyyəti hesabına yaranmışdır.

2004-cü il ərzində nəqliyyat-yol kompleksinə daxil olan dövlət qurumları üzrə əldə olunmuş ümumi gəlirin həcmi 9,4 faiz artmış və 2157645,0 milyon manat təşkil etmişdir. Büdcəyə 174871,5 milyon manat vəsait ödənmişdir. İşçilərin orta illik sayı 43947 nəfər olmuş, orta aylıq əmək haqqı 2003-cü ilə nisbətən 20,2 faiz artaraq 627,6 min manat təşkil etmişdir.

2003-cü ilin oktyabrın 1-dən 2005-ci ilin yanvarın 1-dək nəqliyyat-yol kompleksinə daxil olan dövlət qurumları tərəfindən həyata keçirilmiş tədbirlər nəticəsində 2544 daimi, 759 müvəqqəti iş yerləri açılmışdır.

Hesabat ilində Nazirliyin “Yolnəqliyyatservis” Departamenti tərəfindən ümumi istifadədə olan avtomobil yollarının əsaslı təmirinə 9149,0 milyon manat, 35896,1 milyon manat orta təmirinə, cari təmirlərə və saxlanmasına isə 34196,3

milyon manat həcmində vəsaiti istifadə edilmişdir. Yerinə yetirilmiş iş həcmləri 2003-cü ilə nisbətən 7,2 faiz artmışdır.

2004-cü il ərzində Ələt – Qazı-Məmməd (46 km) avtomobil yolu tikilib istismara verilmiş, 178 km yol əsaslı və 290 km yol orta təmir olunmuş, Qəbələ, Tovuz, Gədəbəy, Ucar, Quba rayonlarında və Biləcəri qəsəbəsində 6 yeni körpü tikilib istismara verilmiş, 3 ədəd körpü əsaslı təmir edilmişdir.

Respublika əhəmiyyətli Bakı-Qazax-Gürcüstan Dövlət sərhədi avtomobil yolunun 21-55 km hissəsində 2800,0 milyon manat, Qaraməryəm-İsmayıllı-Şəki avtomobil yolunun 52-62 km hissəsində 575,0 milyon manat, Bakı-Xudat-Rusiya sərhədi avtomobil yolunun Bakı-Sumqayıt hissəsində 27999,0 milyon manat dəyərində təmir işləri yerinə yetirilmişdir. Biləsuvar-İran sərhədi avtomobil yolunun yenidən qurulmasında 4752,0 milyon manat dəyərində iş həcmi yerinə yetirilmişdir.

Dünya Bankının ayırdığı kredit və dövlət büdcəsi vəsaiti hesabına Gəncə-Qazax-Gürcüstan Respublikası dövlət sərhədi avtomibil yolunun yenidənqurulmasında 26142,1 milyon manat dəyərində iş həcmi yerinə yetirilmişdir. Bu layihə üzrə yenidənqurma işlərinin dəyəri 16928,0 milyon manat, uzunluğu 21 km olan Gəncə-Şəmkir hissəsinin tikintisi hesabat ilində başa çatmışdır.

Azərbaycan Dövlət Dəmir Yolunda çən vaqonlarının yuyulması üçün Biləcəri yuyucu stansiyasında layihə dəyəri 28 milyard manat təşkil edən yenidənqurma işləri davam etdirilmiş, Bakı dəmir yolu vağzalının əsaslı təmiri ilə bağlı işlərə başlanmışdır, Bakı şəhərində 60 mənzilli yaşayış evinin tikintisi başa çatdırılmışdır.

Xəzər Dəniz Gəmiçiliyində “Professor Əziz Əliyev”, “Cəlil Məmmədquluzadə”, "Babək" və “Şollar” tankerləri, “Delfin” teploxodu istismara buraxılmış, “Yaxt klub” idman kompleksinin tikintisi başa çatdırılmışdır. Xəzərdə ticarət donanmamızın flaqmanı sayılan 13,2 min ton yükgötürmə qabiliyyətinə malik olan “Prezident Heydər Əliyev” tankeri istismara verilmişdir.

2004-cü ildə Heydər Əliyev adına Bakı Beynəlxalq Hava Limanında yerli hava xətləri binası istifadəyə verilmiş və yeni naviqasiya və informasiya-məlumat sistemləri quraşdırılmışdır, Naxçıvan Beynəlxalq Hava Limanında yenidənqurma işləri başa çatdırılmış və istifadəyə verilmişdir. Təyyarə parkının yeniləşdirilməsi məqsədilə müasir tipli yeni sərnişin və yük təyyarələrinin alınmasına başlanmışdır. Bakı Hava Limanında müasir standartlara cavab verən yük terminalının tikintisi başa çatmaq üzrədir.

Bakı buxtasında dəniz üzgüçülüyünün təhlükəsizliyini təmin etmək üçün Avropa Birliyinin qrantı hesabına dəyəri 1 milyon Avro olan "Gəmilərin hərəkətini idarəetmə sistemi" yaradılmış, yeni naviqasiya nişanları quraşdırılmışdır. Bakı dəniz vağzalında və bərə keçid körpüsündə əsaslı təmir işləri davam etdirilir.

Avtomobil nəqliyyatı sahəsində aparılan islahatlar nəticəsində nəqliyyat müəssisələrinin əksəriyyəti özəlləşdirilmiş, 2004-cü ildən başlayaraq özəl sektorun vəsaiti hesabına müasir tələblərə cavab verən Bakı Beynəlxalq Avtovağzal kompleksinin tikintisi həyata keçirilir.

**Azərbaycan Respublikası nəqliyyat sektoruna daxil olan sahələrin 2004-cü ilin yanvar-dekabr ayları ərzində əsas istehsal və iqtisadi göstəriciləri**

| № | Cöstəricilər | Ölcü vahidi | 2004-cü ilin yanvar-dekabr aylarında | 2003-cü ilin müvafiq dövründə | Keçən ilin müvafiq dövrünə nisbətən, %-lə | 2004-cü il dekabr ayında | 2003-cü ilin müvafiq ayında | 2004-cü ilin dekabr ayının 2003-cü ilin müvafiq ayına nisbətən,%-lə |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Yük daşıma** | min. ton | **99463,3** | **92739,5** | **107,3** | **10115,2** | **9248,4** | **109,4** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 20967,7 | 20345,0 | 103,1 | 2287,0 | 1919,7 | 119,1 |
| | neft məhsullarının daşınması | | 10879,9 | 12945,1 | 84 | 856,9 | 1137,7 | 75,3 |
| | tranzit daşınma | | 6152,1 | 8120,4 | 75,8 | 500,3 | 648,4 | 77,2 |
| | su | | 13207,9 | 13272,3 | 99,5 | 984,9 | 1085,0 | 90,8 |
| | neft məhsullarının daşınması | | 6303,2 | 8034,1 | 78,5 | 508,4 | 543,1 | 93,6 |
| | tranzit daşınma | | 6294,6 | 8008 | 78,6 | 505,7 | 542,1 | 93,3 |
| | hava | | 74,0 | 51,8 | 142,9 | 6,8 | 3,3 | 206,1 |
| | avtomobil | | 65213,7 | 59070,4 | 110,4 | 6836,5 | 6240,4 | 109,6 |
| 2 | **Sərnişin daşıma** | min. nəfər | **816097,8** | **791182,6** | **103,1** | **71359,7** | **69232,9** | **103,1** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 5259,2 | 4735,6 | 111,1 | 458,7 | 447,2 | 102,6 |
| | su | | 19,6 | 13,4 | 146,3 | 1,3 | 1,1 | 118,2 |
| | hava | | 1093,7 | 867,4 | 126,1 | 86,0 | 80,4 | 107,0 |
| | avtomobil | | 809725,3 | 785566,2 | 103,1 | 70813,7 | 68704,2 | 103,1 |
| 3 | **Yük dövriyyəsi** | mln.ton km | **21720,4** | **20719,0** | **104,8** | **2417,7** | **2117,0** | **114,2** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 7670,0 | 7719,0 | 99,4 | 831,0 | 689,0 | 120,6 |
| | su | | 6773,3 | 6554,6 | 103,3 | 588,2 | 523,9 | 112,3 |
| | hava | | 312,0 | 204,3 | 152,7 | 25,2 | 22,4 | 112,5 |
| | avtomobil | | 6965,1 | 6241,1 | 111,6 | 973,3 | 881,7 | 110,4 |
| 4 | **Sərnişin dövriyyəsi** | mln.sər.km | **12520,5** | **11634,4** | **107,6** | **1100,7** | **1045,1** | **105,3** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 791,5 | 654,3 | 121,0 | 70,4 | 70,0 | 100,6 |
| | su | | 7,3 | 5,5 | 132,7 | 0,3 | 0,5 | 60,0 |
| | hava | | 1443,0 | 1112,7 | 129,7 | 110,0 | 108,7 | 101,2 |
| | avtomobil | | 10278,7 | 9861,9 | 104,2 | 920,0 | 865,9 | 106,2 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 5 | **Limanında yükləmə-boşaltma işləri** | min. ton | **8523,6** | **9873,3** | **86,3** | **664,2** | **807,1** | **82,3** |
| | o cümlədən: | | | | | | | |
| | ixrac yükləri | | 410,1 | 299,2 | 137,1 | 35,7 | 31,9 | 111,9 |
| | idxal yükləri | | 456,9 | 217,4 | 2,1d | 24,0 | 21,1 | 1,1d |
| | kabotaj yüklər | | 32,9 | 48,0 | 68,5 | 2,4 | 4,8 | 0,0 |
| | beynəlxalq tranzit yüklər | | 7621 | 9306,7 | 81,9 | 602,1 | 748,2 | 80,5 |

## Azərbaycan Respublikası nəqliyyat sektoruna daxil olan sahələrin 2004-cü ilin yanvar-dekabr ayları ərzində əsas istehsal və iqtisadi göstəriciləri

| № | Cöstəricilər | Ölcü vahidi | 2004-cü ilin yanvar-dekabr aylarında | 2003-cü ilin müvafiq dövründə | Keçən ilin müvafiq dövrünə nisbətən, %-lə | 2004-cü il dekabr ayında | 2003-cü ilin müvafiq ayında | 2004-cü ilin dekabr ayının 2003-cü ilin müvafiq ayına nisbətən,%-lə |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | **Yük daşıma** | min. ton | **117608,0** | **110001,1** | **106,9** | **11731,3** | **10671,7** | **109,9** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 20967,7 | 20345,0 | 103,1 | 2287,0 | 1919,7 | 119,1 |
| | su | | 13207,9 | 13272,3 | 99,5 | 984,9 | 1085,0 | 90,8 |
| | hava | | 74,0 | 51,8 | 142,9 | 6,8 | 3,3 | 206,1 |
| | boru kəməri | | 18144,7 | 17261,6 | 105,1 | 1616,1 | 1423,3 | 113,5 |
| | neft kəməri | | 11588,5 | 11282,8 | 102,7 | 977,4 | 873,7 | 111,9 |
| | qaz kəməri | | 6556,2 | 5978,8 | 109,7 | 638,7 | 549,6 | 116,2 |
| | avtomobil | | 65213,7 | 59070,4 | 110,4 | 6836,5 | 6240,4 | 109,6 |
| 2 | **Sərnişin daşıma** | min. nəfər | **816097,8** | **791182,6** | **103,1** | **71359,7** | **69232,9** | **103,1** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 5259,2 | 4735,6 | 111,1 | 458,7 | 447,2 | 102,6 |
| | su | | 19,6 | 13,4 | 146,3 | 1,3 | 1,1 | 118,2 |
| | hava | | 1093,7 | 867,4 | 126,1 | 86,0 | 80,4 | 107,0 |
| | avtomobil | | 809725,3 | 785566,2 | 103,1 | 70813,7 | 68704,2 | 103,1 |
| 3 | **Yük dövriyyəsi** | mln.ton km | **23417,4** | **22294,6** | **105,0** | **2578,0** | **2267,8** | **113,7** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 7670,0 | 7719,0 | 99,4 | 831,0 | 689,0 | 120,6 |
| | su | | 6773,3 | 6554,6 | 103,3 | 588,2 | 523,9 | 112,3 |
| | hava | | 312,0 | 204,3 | 152,7 | 25,2 | 22,4 | 112,5 |

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | boru kəməri | | 1697,0 | 1575,6 | 107,7 | 160,3 | 150,8 | 106,3 |
| | neft kəməri | | 654,6 | 649,2 | 100,8 | 52,2 | 50,2 | 104,0 |
| | qaz kəməri | | 1042,4 | 926,4 | 112,5 | 108,1 | 100,6 | 107,5 |
| | avtomobil | | 6965,1 | 6241,1 | 111,6 | 973,3 | 881,7 | 110,4 |
| 4 | **Sərnişin dövriyyəsi** | mln.sər. km | **12520,5** | **11634,4** | **107,6** | **1100,7** | **1045,1** | **105,3** |
| | o cümlədən: | | | | | | | |
| | dəmir yolu | | 791,5 | 654,3 | 121,0 | 70,4 | 70,0 | 100,6 |
| | su | | 7,3 | 5,5 | 132,7 | 0,3 | 0,5 | 60,0 |
| | hava | | 1443,0 | 1112,7 | 129,7 | 110,0 | 108,7 | 101,2 |
| | avtomobil | | 10278,7 | 9861,9 | 104,2 | 920,0 | 865,9 | 106,2 |
| 5 | **Limanında yükləmə-boşaltma işləri** | min. ton | **8523,6** | **9873,3** | **86,3** | **664,2** | **807,1** | **82,3** |
| | o cümlədən: | | | | | | | |
| | ixrac yükləri | | 410,1 | 299,2 | 137,1 | 35,7 | 31,9 | 111,9 |
| | idxal yükləri | | 456,9 | 217,4 | 2,1d | 24,0 | 21,1 | 1,1d |
| | kabotaj yüklər | | 32,9 | 48,0 | 68,5 | 2,4 | 4,8 | 0,0 |
| | beynəlxalq tranzit yüklər | | 7621 | 9306,7 | 81,9 | 602,1 | 748,2 | 80,5 |